## *QOŞMA İDARƏ EDİRMİ?*

***Akif MƏMMƏDOV,***

*pedaqoji elmlər namizədi.*

Bu sualın cavabında dilçi alimlər birbirinə tam əks olan iki cəbhəyə ayrılırlar: «hə» cavabı verənlər və «yox» cavabı verənlər. 1981-ci ildə «Elm» nəşriyyatında çapdan çıxan «Müasir Azərbaycan dili» kitabının III cildində belə bir yarımbaşlıq var: **«Qoşmalarla idarə»** (səh. 75—76). 1972-ci ildə çap edilən «Müasir Azərbaycan dili» (müəlliflər: Ə.Abdullayev, Y.Seyidov və A.Həsənov - IV hissə) adlı ali məktəb dərsliyində isə oxuyuruq: «İdarə əlaqəsi ilə yaranan birləşmələrin tabe edən tərəfi, əsasən, fellərdən ibarət olur. Bir sıra başqa nitq hissələri də müəyyən dərəcədə idarə etmək qabiliyyətinə malikdir» (səh. 19.). Bir səhifə sonra fikir açıqlanır: «Fel olmayan nitq hissələri ilə idarə əlaqəsi dedikdə **isim, sifət, say, əvəzlik,** qismən də **zərflərin** (fərqləndirmə mənimdir - M.A.) idarə əlaqəsi prosesində tabeedici sözlər kimi çıxış etmələri nəzərdə tutulur» (səh. 20.). Orta məktəb dərsliklərində isə bu məsələ, necə deyərlər, «qaranlıq» qalır: «İdarə əlaqəsində... əsas tərəf çox vaxt fel olur, lakin başqa sozlər də əsas söz kimi çıxış edə bilir. Məsələn: yuxudan oyanmaq, əskərlərdən biri, dağlardan ağır, oxumağa həvəs, dağlara yol, böyüyə hörmət, ondan bilikli, gedəni qaytarmaq və s», (Q.Kazımov, Y.Seyidov «Türk dili», 7-8-ci siniflər üçün, səh. 40.). Göründüyü kimi, qoşma ilə idarəyə misal yoxdur. Belə «qeyri-müəyyənlik» orta məktəbin müəllim və şagirdlərini sintaktik əlaqələrə görə təhlil zamanı dolaşdırır.

Məlum məsələdir ki, idarə bir başa hallanma ilə əlaqədardır. Başqa sözlə, əgər söz hallanıbsa, demək, idarə olunub. İsmin hallanmasından bəhs edən alimlərin isə yekdil fikri belədir: «İsimlər başqa sözlərlə əlaqəyə girərkən dəyişir, yəni **müəyyən qrammatik şəkilçilər qəbul edir.** (Fərqləndirmə mənimdir-M.A.). İsmin belə dəyişməsinə onun hallanması deyilir» (Ə.Əfəndizadə, B.Əhmədov «Türk dili», V siniflər üçün, 1994-cü il, səh. 157).

**Haşiyə.** Mətləbdən bir qədər uzaq düşsək də, bu tərifdəki bir məsələyə münasibətimi bildirmək istəyirəm. Məncə, hallanmanı «müəyyən qrammatik şəkilçi qəbul edir» kimi səciyyələndirmək düz deyil. Çünki qeyri-müəyyən yiyəlik

və qeyri-müəyyən təsirlik hallarda olan isim şəkilçi qəbul etmir. Məgər onları hallandırma adlandırmaq olmaz? Bəlkə, elə bəzi şagirdlərin, hətta müəllimlərin də qeyri-müəyyən halları idarə edən sözlə olan əlaqəni yanaşma adlandırmağa cəhdləri də bu təriflə bağlıdır.

Deməli, söz özbaşına hallanmaz, onu hansı bir sözsə hallandırır (idarə edir). Orta məktəb dərsliyində (B.Əhmədov, A.Axundov «Türk dili» VI siniflər üçün, 1994-cü il, səh. 78.) qoşmaya verilən tərifin birinci hissəsindən («İsmin yiyəlik, yönlük, çıxışlıq halında olan sözlərə qoşularaq...») belə çıxır ki, qoşma hansı bir söz tərəfindənsə hallanmış ismə artırılır. Bəs əgər qoşma hallandırma (idarə etmə) qabiliyyətinə malik deyilsə, onun «artırıldığı sözü» idarə edən tərəf hansıdır? Bəzi dilçilərin fikrincə, qoşmanın artırıldığı söz qoşma vasitəsilə başqa bir tərəflə (ən çox fellə) əlaqəyə girir, hallanan sözü qoşma yox, ondan (qoşmadan) sonra gələn digər bir söz, deyək ki, fel hallandırır. Belə çıxır ki, «Bura sənin üçün gəlmişəm» cümləsində «sən» sözünü «gəlmişəm» idarə edib, ancaq idarə olunan tərəf (sən) «üçün» qoşmasının vasitəsilə həmin felə bağlanıb. Burada belə bir fakt unudulur ki, feldən başqa digər əsas nitq hissələri ilə də idarə olunan söz məhz onu idarə edən tərəfin vasitəsilə fellə və ya digər nitq hissəsi ilə əlaqələnir. Fikir verin: **«Niyə onların anası bu qədər narahat olmur»** cümləsində **«anası»** sözü «**onların»** sözünü idarə edib və ikisi birlikdə (onların anası) **«narahat olmur»** feli ilə uzlaşma əlaqəsinə girib (bu barədə bir qədər sonra).

Əgər **«Buraya sənin üçün gəlmişəm»** cümləsində bütün sözləri, hətta feli də saxlayıb, **«üçün»** qoşmasını **«görə»** qoşması ilə əvəz etsək, **«sən»** sözünün halı dəyişəcək: **«Buraya sənə görə gəlmişəm».** Bəs **«sən»** sözü halını niyə dəyişdi? Belə çıxmırmı ki, hər qoşma müəyyən halı idarə, edə bilir. Necə ki, təsirli fellər təsirlik halı tələb edir, təsirsiz fellərdə isə bu qabiliyyət yoxdur.

Qoşma ilə idarəni inkar edənlərin bir arqumenti də odur ki, idarə edən tərəf əsas, idarə olunan tərəf isə asılı tərəfdir. Qoşma köməkçi nitq hissəsi olduğu üçün əsas tərəf kimi işlənə bilməz. Ancaq qoşmanın diqqətlə araşdırılması, ayrı-ayrı dil faktları üzərində müşahidələr göstərir ki, qoşmanı əsas nitq hissələrinə yaxınlaşdıran cəhətlər çoxdur. Bu, məlum həqiqətdir ki, köməkçi nitq hissələri əsas

nitq hissələrindən yaranıb. Necə deyərlər, sözlərin «ömür yolu» əsasdan köməkçi nitq hissəsinə doğrudur. Ancaq qoşmalarda bu «yol» - köməkçiyə keçid prosesi hələ tam başa çatmayıb, hər halda başqa köməkçi **nitq** hissələrində olduğu kimi deyil. Hətta ayrı-ayrı qoşmalarda bu proses müxtəlif vəziyyətdədir. Qoşmanı köməkçi nitq hissələrindən fərqləndirən və əsas nitq hissələrinə yaxınlaşdıran cəhətlər hansılardır?

1. Qoşulduğu sözlərlə birlikdə olsa da, hər halda cümlə üzvü vəzifəsində işlənə bilir. Bu xüsusiyyət köməkçi nitq hissələrinin heç birində yoxdur.

2. Omonimlik kəsb etmədən cümlədəki yerində asılı olaraq müxtəlif nitq hissəsi funksiyasında işlənə bilir: tərəf (evə tərəf). **Qarşı tərəf bu təklifə razı olmadı** cümləsində **«tərəf»** qoşması isimləşib. Məncə, burada VI sinfin dərsliyində olduğu kimi, qoşmaların omonimliyindən yox, (səh. 109.) eyni sözün müxtəlif sintaktik funksiya daşımasından (sifətin və ya sayın isimləşməsində olduğu kimi) danışmaq lazımdır. Çünki həmin sözlər müxtəlif funksiya daşıdıqda belə, məna yaxınlıqlarını itirmirlər. Məsələn, sonra və əvvəl sözləri həm zərf, həm də qoşma kimi işlənəndə, zaman mənalarını, **başqa,** özgə həm sifət, həm qoşma kimi işləndikdə fərqləndirmə, istisna məna ümumiliklərini saxlayırlar.

3. Əsas nitq hissələri kimi idarə edə bilmək də, görünür, qoşmaların mənşəyi ilə bağlıdır. Belə ki, bu xüsusiyyət onların «mənşə əlaməti kimi» hələ də özünü saxlayır. Başqa sözlə, müstəqil nitq hissələrindən yaranan qoşmalar «babaları»nın bəzi qabiliyyətini saxlaya bilməsələr də (müstəqil leksik mənaya malik olmaq, ayrıca cümlə üzvü kimi işlənə bilmək və s), bəzilərini, o cümlədən, idarə etmə qabiliyyətini müəyyən dərəcədə hifz edə biliblər. Təbii ki, nitq hissəsinin idarə etmə «qabiliyyəti»nin nə səviyyədə olması onun qrammatik və semantik zənginliyindən çox asılıdır. Elə buna görə də dilçilərin yekdil rəyinə görə, ən çox idarə etmə «qabiliyyəti» felə məxsusdur. Çünki, fel, «öz quruluşu, növləri və zənginliyi etibarilə başqa nitq hissələri içərisində xüsusi yer tutur» (M.Hüseynzadə, «Müasir Azərbaycan dili», səh. 147.). Ondan sonra əsas nitq hissələri, daha sonra isə qoşma gəlir. Lakin qoşma idarə etmə xüsusiyyətinə görə də əsas nitq hissələrinə çox oxşayır. Yuxarıda qeyd etdiyimiz kimi, feldən başqa əsas nitq hissələri idarə

etdiyi sözlə birləşmə əmələ gətirir və bu birləşmə bütövlükdə özlərindən sonra gələn hər hansı bir sözlə sintaktik əlaqəyə girir. **«Qadın əlində süpürgə içəri daxil oldu»** cümləsində **«süpürgə»** ismi «əl» sözünü idarə edib və ikisi birlikdə **«daxil oldu»** feli ilə yanaşma əlaqəsinə görə bağlanıb (əlində süpürgə - daxil oldu). **«O, səndən sonra içəri daxil oldu»** cümləsində də **«sonra»** sözü «sən» sözünü idarə edib və ikisi birlikdə **«daxil oldu»** felinə bağlanıb (səndən sonra - daxil oldu). Məhz bu xüsusiyyəti nəzərə alaraq bəzi dilçilər iddia edir ki, qoşmalar «müəyyən sözə qoşularaq həmin sözlə fel arasında sintaktik əlaqə yaradır». (M.Hüseynzadə, göstərilən əsəri) və yaxud «ismin yiyəlik, yönlük və çıxışlıq halında olan sözlərə qoşularaq müəyyən məna çaları əmələ gətirir». (B. Əhmədov, A.Axundov, göstərilən əsər). Əgər biz yuxarıdakı nümunədə qoşmanın hallandırma xüsusiyyətini inkar etsək, gərək «əlində süpürgə» birləşməsindəki «süpürgə» isminin də idarə etmə qabiliyyətini inkar edək. Çünki hər iki nümunədə idarə edən və idarə olunan tərəflər eyni qrammatik mövqedədir. Bu cəhətdən bir neçə nümunəni də nəzərdən keçirək:

1) **Onun kitabı** əldən-ələ gəzdi (onun kitabı - gəzdi); Qardaşların hər ikisi **onun kimi** oxuyur (onun kimi - oxuyur).

2) Əbdül **dildən iti, başdan boş** adam idi (dildən iti - adam, baş-dan boş - adam); Bu var-dövlət **səndən sonra** mənə lazım deyil. (səndən sonra - lazım deyil) və s.

b) Bir neçə əsas nitq hissəsi kimi, qoşma da xəbər şəkilçisi qəbul edir və beləliklə, özündən əvvəlki sözlə uzlaşma əlaqəsinə girir. **Əsas nitq hissəsində: «O, sənin dostundur»; qoşmalarda: «Mən də onun kimiyəm».** Qoşmanın bu cür sintaktik mövqeyi - xəbər şəkilçisi qəbul etdikdə qoşulduğu sözü özündən sonra heç bir sözlə əlaqələndirməməsi qoşmanın guya ancaq hallanan sözlərə artırılaraq özündən sonrakı fellə onların arasında əlaqə yaratmağa xidmət etməsi fikrini inkar edir.

3) Göründüyü kimi, köməkçi nitq hissələrinin heç birində müşahidə edilməyən xəbər şəkilçisi qəbul edərək dəyişmək də qoşmanı əsas nitq hissələrinə yaxınlaşdırır. Bəzi qoşmalar isə məhz qoşma funksiyasını yerinə yetirdikləri

mövqedə hal və cəm şəkilçiləri də qəbul edir: **«Onların qarşısıka tələb qoyuldu»**. «**Bizim tərəflərə gəl**». «**Səndən «özgəyə gümanım yoxdur**» və s.

Göründüyü kimi, «qoşma köməkçi nitq hissəsi olduğu üçün əsas tərəf ola bilməz» hökmünü faktlar, qoşmanın qrammatik mövqeyi inkar edir. Bu mövqe, hər şeydən əvvəl qoşmanın mənşə əlamətini (əsas nitq hissələrindən qalma əlamət) hələlik özündə saxlaması ilə izah olunmalıdır.

***"Azərbaycan dili və ədəbiyyatı tədrisi", 1997, №2***